# Qubadlıda hünər dastanı yazan qəhrəman

**Qadir Ədalət oğlu Heydərov 44 günlük haqq savaşımızda ölkəmizin ərazi bütövlüyü uğrunda canı-qanı bahasına vuruşaraq 22 yaşında şəhidlik zirvəsinə ucalıb. Vətəninə, xalqına dərin məhəbbətlə bağlı olan bu igidin həyatı sönmədi, əlçatmaz, ünyetməz göylərin parlaq ulduzuna döndü. Xalqımızın qəhrəmanlıq salnaməsinə adını yazan Qadir indi bütün Azərbaycanın fəxridir. Həmçinin milyonlarla insanın qəlbində öz əbədi heykəlini ucaldan qəhrəman "Vətən uğrunda", Cəbrayılın və Qubadlının azadlığına görə medallarla təltif olunub.**

Qadir Heydərov 11 may 1998-ci ildə Cəlilabad rayonunun Əsədli kəndində doğulub. Bakıda 59 saylı məktəbdə 5-ci sinfə qədər oxuyub. Orta təhsilini Abşeron rayonu, Mehdiabad 1 saylı məktəbdə başa vurub. Qadirin nizam-intizamı, əxlaqı, vətənpərvərliyi, yaxşılardan görüb-götürmək bacarığı oxuduğu təhsil ocağında hamını heyran qoyub.

Vətən torpağının hər qarışını əziz bilən Qadir Qarabağımızı işğal etmiş ermənilərə od qoymaq məqsədilə 2016-cı ildə ordu sıralarına yollanıb. Vicdanlı, qeyrətli, ürəyi doğma Azərbaycana sevdalanan əsgərin nümunəvi xidməti qısa zaman kəsiyində hərbi hissədə ona hörmət qazandırıb. Cəbhə bölgəsində Vətəninə keşik çəkmək nə qədər çətin olsa da, Qadir bundan qürur duyub. Həm də yaxşı dərk edib ki, döyüş meydanında düşmənə qalib gəlmək üçün hərbi təlimlərdə fəal olmaq əsas şərtdir. Odur ki, təlimlərə ürəklə, cəsarətlə qoşulub. 2018-ci ildə əsgəri xidməti başa çatıb.

İkinci Qarabağ savaşında Qadir Heydərov Vətənin çağırışına birinci səs verib. Qeyrətli oğullara qoşulub ön cəbhəyə yollanıb. Əlinə silah alan andan 30 il əsir düşən Qarabağımızın son qarışının azad olunacağı günədək düşmənlə döyüşəcəyinə and içib. İlk qəhrəmanlığını Qubadlıda göstərib. Çətin döyüş əməliyyatında yağının həm canlı qüvvəsinə, həm də texnikasına böyük ziyan vurub. Daha sonra Zəngilan, Cəbrayıl istiqamətlərində gedən qızğın müharibə meydanlarında mərdliklə döyüşüb.



Qadir Ədalət oğlu Heydərov 29 oktyabr 2020-ci ildə Qubadlının adsız yüksəkliyində snayperlə başından vurulub. 22 yaşlı şəhidimiz Abşeron rayonundakı Mehdiabad qəsəbəsində canından əziz tutduğu torpağa tapşırılıb.

**Z.ORUCOĞLU.**

Respublika .- 2025.- 24 iyul (№151).- S.11.